# Könüllülərin maraqlı çıxışı



Qəbələ «ASAN xidmət» mərkəzinin könüllüləri yeni maraqlı layihə ilə qəbələlilərin görüşünə gəlib. Könüllülər Azərbaycan dramaturgiyasının banisi, böyük maarifçi, görkəmli ədib Mirzə Fətəli Axundzadənin «Sərgüzəşti-vəziri-xani-Lənkəran» dramının səhnə təqdimatı ilə tamaşaçılar qarşısında çıxış ediblər. Komediya janrında olan bu dram əsəri XIX əsrin əllinci ilində yazılıb. 1873-cü ildə Həsən bəy Zərdabi başda olmaqla xalqımızın bip qrup maarifpərvər ziyalısının təşəbbusü və iştirakılə tamaşaya qoyulub və böyük uğur qazanıb. Aradan keçən əsr yarımdan çox zaman bu əsərə marağı azalda bilməyib. İstər peşəkarların, istərsə də həvəskarların ifasında səhnəyə çıxarılan əsər həmişə maraqla qarşılanıb. «ASAN xidmət» könüllülərinin ifasında da «Sərgüzəşti-vəziri-xani-Lənkəran» komediyası tamaşaçılar tərəfindən alqışlarla mükafatlandırılıb.



Əminik ki, Qəbələ «ASAN xidmət» könüllüləri özlərinin yeni-yeni layihələri ilə zaman zaman qəbələlilərin görüşünə gələcəklər.

**«Qəbələ»**

# Turizm və xidmət sahəsi üzrə təlim

Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, "British Council" və ölkədə fəaliyyət göstərən beşulduzlu mehmanxanalarla birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən "Turizm - xidmət sahəsi üzrə kadrların təkmilləşdirilməsi və iş yerində təcrübə proqramı" üzrə təlimlərdə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin ixtisas fənn müəllimləri də iştirak etmişlər.

Təlimlər 4–7 sentyabr 2018-ci il tarixlərində 4 gün davam etmişdir və təlimin tədris materialları "People 1st" təşkilatı tərəfindən hazırlanıb.

Tədbirin əsas məqsədi layihə çərçivəsində hazırlanmış kurikulumların 2018–2019-cu tədris ilində tətbiqi ilə bağlı müəllimlərin təlimləndirilməsidir. Təlimə Bakı və Gəncə şəhərləri, Qəbələ, İsmayıllı və Qusar rayonları üzrə peşə təhsil müəssisələrinin müvafiq ixtisas müəllimləri cəlb olunmuşdu. Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzindən 3 nəfər kadr - Səbinə Cahangirli, Nailə Gülməmmədova, Cəmilə Şirinova Birləşmiş Kırallığın "People 1st" təşkilatının təlimçisi Jeyn Norman tərəfindən turizm və xidmət sahəsi üzrə keçirilən təlimdə fəal iştirak etmiş və sertifikatlar almışlar.

**Reyhan MƏMMƏDOVA,**
**tədris istehsalat işləri üzrə direktor müavini.**

# Fermerlərlə görüş keçirilmişdir

Qəbələ Rayon Dövlət Aqrar İnkişaf Mərkəzində fermerlər şurasının üzvləri ilə görüş keçirilmişdir.

Rayon dövlət aqrar inkişaf mərkəzinin direktoru Rahib Əhmədov şura üzvlərini salamlamış, görüşün keçirilməsi məqsədi barədə məlumat vermişdir. Mərkəzin direktoru ölkədə kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərdən danışmışdır. Rahib Əhmədov bildirmişdir ki, bu təsərrüfat ili fermerlərimiz üçün uğurlu olmuşdur. Taxıl yığımı müvəffəqiyyətlə başa çatmışdır. İndi yay şumu aparılır.

Direktor qeyd etmişdir ki, bağlarda bol fındıq, üzüm, alma və sair meyvələr yetişmişdir. Hazırda fındıq və üzüm yığımının qaynar vaxtıdır.

Mərkəzin rəhbəri qarşıdakı həftələrdə, aylarda fermerlərin görəcəyi işlər barədə danışmış, onlarla fikir mübadiləsi aparmışdır.

Fermerlər şurasının üzvlərindən Ağalət Baxışov (Nic qəsəbəsi) Vəkill Ağayev (Kiçik Əmili kəndi) Usub Məmmədəliyev (Nic qəsəbəsi) Səbuhi Nəbiyev (Mıxlıqovaq kəndi), İlham Şərifov (Çüxür Qəbələ kəndi) və başqaları çıxış edərək məhsul istehsalını artırmaq, hazır məhsulu bazarlara çıxarmaq, anbarlarda uzun müddət saxlamaq və sair sahələrdə işin yaxşılaşdırılması üçün təkliflər irəli sürmüşlər.

Fermerlər şurasının yığıncağı sual-cavab və dialoq şəklində davam etmişdir. Görüşü Qəbələ Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Rahib Əhmədov yekunlaşdırmışdır.

**Elmdar ŞƏRİFOV,**
**rayon aqrar inkişaf mərkəzində bitkiçilik sektorunun müdiri.**

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

## İdman xəbərləri

# İdmançımız olimpiya oyunlarına lisenziya qazanıb

"Qəbələ" idman klubunun taekvondoçusu Cavad Ağayev Gənclərin Yay Olimpiya Oyunlarında iştirak edəcək. Təmsilçimiz Argentinanın paytaxtı Buenos-Ayresdə təşkil olunacaq yarışa lisenziya qazanıb.



AZƏRTAC xəbər verir ki, taekvondoçumuz Rusiyada keçirilən G1 kateqoriyalı "Russian Open" turnirində qazandığı qələbədən sonra mötəbər yarışa vəsiqəni rəsmiləşdirib. Altmış üç kiloqram çəki dərəcəsində çıxış edən Ağayev Azərbaycan milli komandasını bu kateqoriyada təmsil edəcək.

Xatırladaq ki, Gənclərin Yay Olimpiya Oyunları bu il oktyabrın 6-18-də keçiriləcək.

# «Qəbələ»nin UEFA Gənclər Liqasındakı rəqibi müəyyənləşib

Sentyabrın 4-də futbol üzrə UEFA Gənclər Liqasında Çempionlar yolunun püşkatma mərasimi keçirilib. İsveçrənin Nyon şəhərində təşkil olunan tədbirdə iki mərhələnin cütləri bəlli olub. Yarışa bu yolla qatılan komandalar arasında "Qəbələ" də yer alıb.

AZƏRTAC xəbər verir ki, ötən mövsüm Gənclər Liqasının qalibi olan "Qəbələ" turnirdə Moldovanın "Şerif" klubu ilə üz-üzə gələcək. İlk oyun oktyabrın 3-də, cavab matçı 24-də baş tutacaq. Azərbaycanı ikinci dəfə bu turnirdə təmsil edəcək "Qəbələ" ilk görüşü evdə keçirəcək.

Bu cütün qalibinin ikinci raunddakı rəqibi "Herta" (Almaniya)-"Lex" (Polşa) duelində müəyyənləşəcək. Bu cütlərdə qalib gələn komandalar arasında matçlar noyabrın 7-də və 28-də keçiriləcək. Emin İmaməliyevin baş məşqçisi olduğu komanda ilk səddi adlasa, II mərhələyə evdə start verəcək.

Xatırladaq ki, bu iki mərhələni adlayan 8 komanda play-offa vəsiqə qazanacaq. Onlar play-offda Çempionlar Liqasında qrup ikincisi olan komandalarla 1/8 finala vəsiqə uğrunda mübarizə aparacaqlar.

# "Qəbələ"nin iki karateçisi İsveçrədə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb

"Qəbələ" idman klubunun karateçiləri növbəti uğura imza atıblar. Azərbaycan milli komandasının heyətində yer alan Rafael Ağayev və Rafiz Həsənov İsveçrənin Bazel şəhərində keçirilən IX "Open Masters-2018" turnirində fərqləniblər.

AZƏRTAC xəbər verir ki, R. Ağayev 75, R.Həsənov isə 67 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. İdmançılarımız yarışın qalibi kimi kubokla təltif olunublar.

Xatırladaq ki, Azərbaycan yığması turnirdə, ümumilikdə 11 mükafata yiyələnib. Bunlardan dördü 1-ci, dördü 2-ci, üçü isə 3-cü yer üçün təqdim olunub.

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Şirinov Ağalar Muxtar oğluna** verilmiş JN seriyalı 196 F nömrəli (kod 40616018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Böyük Pirəli kənd sakini **Eyyubov Fizuli Seyid oğluna** verilmiş JN seriyalı 191 nömrəli (kod 40602018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Mirzəbəyli kənd sakini **Səlimov Azər Qurban oğluna** verilmiş JN seriyalı 0006 nömrəli kod (40613018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzetinin kollektivi **Şahismayıl İsmayılova** oğlu
**VÜQARIN**
vaxtsız vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin kollektivi mərkəzin həkimi
**VÜQAR İSMAYILOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir, əzizlərinə və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Məsul katib
Qüdrət Səmədov

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1847*